**Respublika.** - 2024. - 2 may. - № 89. - S. 1,12.

# Güclü Azərbaycana yüksək etimad

## Dünyada sənayeləşmə və rəqəmsallaşmanın sürətlə getdiyi bir dövrdə ən əhəmiyyətli məsələlər sırasında enerji təhlükəsizliyi dayanır

**Mustafa Kamal**

Eyni vaxtda həm enerjiyə artan tələbatın təmin edilməsi, həm də qlobal ekoloji tələblərin vacibliyi dünya ölkələrini bərpaolunan enerji mənbələrindən istifadəni genişləndirməyə sövq edir. Bu baxımdan qlobal enerji siyasətində əsas istiqamətlərdən biri enerji keçididir. Bərpaolunan enerji texnologiyalarının inkişafı və dünya ölkələrinin qarşıya qoyduqları iqlim hədəfləri "yaşıl enerji"yə keçidi sürətləndirir. Bu il ölkəmizin ev sahibliyi edəcəyi COP29 da Azərbaycanın ümumi yaşıl enerji gündəliyinin bir hissəsini təşkil edir. Hazırda Azərbaycanda məhz bu sahədə irimiqyaslı beynəlxalq layihələr gerçəkləşdirilir.

"COP29-a ev sahibliyi etmək bizim üçün həm böyük şərəf, həm də məsuliyyətdir. Biz buna hazırıq və Azərbaycanın yaşıl gündəliyi artıq dünyaya bəllidir". Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasının Kansleri Olaf Şoltsla aprelin 26-da keçirilən birgə mətbuat konfransında bildirib.

Dövlət başçısı yaşıl enerji gündəliyinin effektivliyindən bəhs edərək bildirib ki, qazıntı yanacağı ehtiyatlarına malik olan bütün ölkələr bu sahədə səylərini artırmalıdırlar. Bu gün Azərbaycanda ölkənin enerji dayanıqlılığının təmin olunması, əlavə generasiya güclərinin yaradılması, enerji tələbatının qarşılanması, ixrac imkanlarının artırılması, ətraf mühitin qorunması, elektrik enerjisinin istehsalında təbii qaza qənaət edilməsi qarşıya əsas vəzifə olaraq qoyulub. Bu kimi vacib məsələlərin həlli üçün ölkəmizdə bərpaolunan enerji istehsalının inkişaf etdirilməsi istiqamətində atılan addımlar xüsusi əhəmiyyət kəsb edir.

2027-ci ilin sonuna qədər respublikamızda 9 günəş və külək elektrik stansiyası istismara veriləcək. Onların enerji potensialı 2 qiqavata bərabərdir. 2030-cu ilə qədər isə əlavə 10 külək və günəş elektrik stansiyası tikiləcək ki, onun da potensialı 5 qiqavata qədər olacaq. Avropaya "yaşıl enerji"ni ixrac etmək üçün fəal iş aparılır və təbii qaz təchizatçısı olan Azərbaycan həmin qitə üçün yaşıl enerji təchizatçısı olacaqdır. Avropa İttifaqının Energetika Komissiyası Azərbaycanı panavropa qaz təchizatçısı kimi qiymətləndirir. Ölkəmizin Avropaya qaz təchizatı strateji tərəfdaşlıq əsasında həyata keçirilir. 2022-ci ildə Avropa İttifaqı ilə Azərbaycan müvafiq memorandum imzalayıblar. 2027-ci ilə qədər biz Avropaya ixrac edəcəyimiz qazın həcmini 20 milyard kubmetrə çatdırmaq əzmindəyik.

Ölkəmizin bərpaolunan enerji istehsalı sahəsində böyük potensiala malik olması bir çox təşəbbüslərin həyata keçirilməsi üçün geniş imkanlar yaradır. Azərbaycan Prezidenti istər neft və qaz resurslarının mövcudluğuna, istərsə də "yaşıl enerji"yə keçidə tamamilə yeni yanaşma təklif edir. Bu gün Azərbaycan "yaşıl enerji"yə keçidi dəstəkləyən ölkələr sırasındadır. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"dən biri kimi "Təmiz ətraf mühit və "yaşıl artım ölkəsi"nin müəyyənləşdirildiyini nəzərə alaraq qeyd etmək olar ki, qarşıdakı dövrdə bərpaolunan enerji mənbələrindən istifadəyə diqqət daha da artırılacaq. Azərbaycan nəinki öz enerji tələbatlarını təmin edir, o cümlədən xam nefti, neft məhsullarını, təbii qazı, neft-kimya məhsullarını və elektrik enerjisini ixrac edir. Azərbaycan bu nəhəng potensialın sayəsində öz ixracını şaxələndirəcək və bunun nəticəsində iqtisadiyyatımızın yeni ekoloji təmiz sahəsi yaranacaqdır. Azərbaycan iqtisadiyyatı sabitdir, münbit investisiya şəraiti var və o təbii sərvətlərə əsaslanır. Hazırda, eyni zamanda, əsas hədəf şaxələndirmədir.

Avropada etibarlı enerji tərəfdaşı kimi mövqeyini möhkəmləndirən Azərbaycan, "yaşıl enerji"yə keçid dövrünün əsas oyunçularından biridir. Həyata keçirilən effektiv islahatlar nəticəsində xarici şirkətlər üçün əlverişli investisiya mühiti yaradan Azərbaycan bərpa olunan enerji sahəsində də böyükhəcmli investisiya layihələri cəlb etməyə nail olub. Belə ki, 2020-ci ildən "Masdar", "ACWA Power", BP, "Fortescue Future Industries", "China Gezhouba Group Overseas Investment", "Total Energies", "Nobel Energy", "A-Z Czech Engineering" və "Baltech" şirkətləri ilə bərpaolunan enerji layihələri ilə bağlı əməkdaşlığa başlanılıb. Ölkəmiz enerji sahəsində Çin şirkətləri ilə "yaşıl enerji" layihələri və yaşıl texnologiyalar üzrə əməkdaşlıqda yeni inkişaf mərhələsinə daxil olub. Xüsusilə, 230 meqavat gücündə "Qaradağ" Günəş Elektrik Stansiyasının inşasında və 2025-ci ildə Mingəçevir şəhərində fəaliyyətə başlayacaq müstəqillik dövrünün ən böyük - 1280 meqavat gücündəki İstilik Elektrik Stansiyasının tikintisində Çinin "Dongfang" şirkətinin iştirakını qeyd etmək lazımdır.

Avropada yeni mənbələrdən olan təbii qaza tələbat artır. Ölkəmiz 2021-ci ildə Avropa İttifaqı ölkələrinə 8 milyard kubmetr qaz ixrac edib və hazırda bu rəqəm 12 milyarda çatıb. Bu sahəyə əlavə

sərmayə qoyulur, vəsait ayrılır. Beləliklə, həm ənənəvi, eyni zamanda, bərpaolunan enerji növləri ilə zəngin olan Azərbaycan Avropa üçün uzun illər bundan sonra da əhəmiyyətli tərəfdaş olacaqdır. Ötən il baş verən vacib hadisələrdən biri Xəzər dənizinin Azərbaycana məxsus sektorunda yerləşən "Abşeron" qaz-kondensat yatağında təbii qazın kommersiya hasilatı oldu. Bu, "Şahdəniz"dən sonra ikinci nəhəng qaz ehtiyatlarının kəşfi deməkdir. "Abşeron" qaz-kondensat yatağı ölkəmizin gələcək şaxələndirmə layihələrinin resurs bazasını təşkil edəcək. Bu gün Azərbaycan 8 ölkəyə qaz nəql edir ki, onlardan altısı Avropa ölkəsidir.

Azərbaycan Prezidenti tərəfindən aparılan məqsədyönlü siyasət nəticəsində ölkəmizdə yüksək sosial-iqtisadi inkişaf və möhkəm ictimai-siyasi sabitliyə nail olunub. Vətən müharibəsində qazandığımız şanlı Zəfər ölkəmizi dünyada daha güclü dövlət kimi tanıdıb. Dövlət başçısının uğurlu xarici siyasəti nəticəsində respublikamızın beynəlxalq səviyyədə nüfuzu günbəgün artır. Dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a ölkəmizin 2024-cü ildə ev sahibi seçilməsi Azərbaycan Prezidentinin növbəti qələbəsidir. Bu, Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurudur. Həmçinin son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə tutarlı cavabdır. Dövlət başçısı bu təşəbbüsü ilə dövlətimizin qüdrətini bir daha dünyaya göstərdi və beynəlxalq aləmdə böyük etimad qazandığını nümayiş etdirdi. Qlobal problemlərdən biri olan iqlim dəyişmələrinə qarşı səyləri səfərbər etmək və bu mübarizəyə töhfə verməklə dünyanın diqqət mərkəzində olacaq ölkəmiz qlobal xarakterli mötəbər tədbirləri yüksək səviyyədə təşkil etmək bacarığını dəfələrlə nümayiş etdirib.

Azərbaycan bu gün də qlobal çağırışların lokallaşdırılması istiqamətində aktiv və uğurlu fəaliyyət aparır. İqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə ölkə başçısı tərəfindən 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunub. Bu, ondan xəbər verir ki, hökumət bu günə qədər görülmüş işlərlə bərabər hədəfləri də düzgün müəyyən edir, bundan sonra da Azərbaycan xalqının gələcəyini, yüksək rifahını nəzərdə tutan məqamların əlaqələndirilməsini həyata keçirəcək.